525- ci qəzet



28 may / 2021

# "İrəli"dən Gəncəyə "Cümhuriyyət-103" səfəri



"İrəli" İctimai Birliyi zaman-zaman paytaxtda və bölgələrdə silsilə maarifləndirici tədbirlər həyata keçirir. Bu günlərdə isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümü münasibətilə keçirilən "Üçrəngli tarix" adlı tədbirlər planı çərçivəsində "İrəli" kollektivinin və gənclərin Gəncə şəhərinə səfəri təşkil edilib.

Gənclər Fondunun dəstəyi, "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilən silsilə tədbirlər çərçivəsində, Gəncə şəhərində yerləşən Cümhuriyyətin ilk parlament binasına və Azərbaycan Xalq Cümhuriyyəti Muzeyinə ekskursiya olub. Layihə iştirakçıları, karantin rejiminin tələbləri nəzərə alınmaqla, Cümhuriyyətin ilk parlament binasında Azərbaycan Xalq Cümhuriyyətinin keşməkeşli fəaliyyət yolunu özündə əks etdirən, Bakı Media Mərkəzinin hazırladığı "Son iclas" filmini izləyiblər. Daha sonra "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilib.

Gənclərin Gəncə şəhərinə səfərindən əvvəl "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə fərdi qaydada "Axtar tap" intellektual oyunu gerçəkləşib. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümü münasibətilə həyata keçirilən intellektual yarışın sualları Cümhuriyyət tarixinə həsr olunub. İntellektual oyunda gənclər Bakının müxtəlif nöqtələrində mövzu üzrə hazırlanan sualların cavablarını ipucular vasitəsilə məhz həmin məkanlarda tapıb, mobil tətbiq üzərindən cavablandıraraq, birincilik uğrunda mübarizə aparıblar.

Gəncədə torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüz uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalan qəhrəmanları yad edən "İrəli" kollektivi ilk olaraq xiyabandakı əbədi məşəl abidəsi önünə gül dəstələri qoyub, ölməz qəhrəmanlara öz ehtiramını bildirib. Vətən müharibəsi zamanı faşist ermənilərin Gəncəyə endirdikləri zərbələr nəticəsində baş verən dağıntıların olduğu məkan da ziyarət edilib, faciə qurbanları anılıb.